

# Əsrin möcüzəsi

*Cənab Ali Baş Komandan,*
*var olun sizi,*
*nə o yeriş*
*yaddan çıxar,*
*nə o yol,*
*nə iz.*
*Dəyişdirdi*
*Azərbaycan*
*tariximizi,*
*Qarabağda*
*o şahanə*
*bir gəzintiniz.*

*Dedilər ki,*
*Atabəydi, -*
*Cahan Pəhləvan,*
*qədim ata torpağını*
*gəzir vüqarla.*
*O yerişdən tanımışdı,*
*sizi tanıyan,*
*doğma ellər*
*alqışladı*
*bir iftixarla.*

*Hərbi zəka,*
*"Dəmir yumruq",*
*44 Gün və Xalq! -*
*əsrin hələ görmədiyi*
*möcüzəsiydi.*
*Azərbaycan*
*Avropanı*
*heyran qoyacaq! -*
*Ulu Öndər özü deyib,*
*tövsiyəsiydi.*

*Cənab Ali Baş Komandan,*
*var olun sizi,*
*nə o yeriş*
*yaddan çıxar,*
*nə o yol,*
*nə iz.*
*Dəyişdirdi*
*Azərbaycan*
*tariximizi,*
*Qarabağda o şahanə*
*bir gəzintiniz.*

*Nəriman HƏSƏNZADƏ,*
*Xalq şairi*

Azərbaycan. - 2023.-28 sentyabr.- S.13.